


# Nazir Beynəlxalq Təhsil Günü ilə bağlı tvit paylaşıb

Təhsil naziri Emin Əmrullayev 24 yanvar- Beynəlxalq Təhsil Günü münasibətilə şəxsi "Twitter" hesabında paylaşım edib.

Nazir qeyd edib ki, Davamlı İnkişaf Məqsədlərinin əldə olunması axtarışında olan qlobal təhsil yalnız COVID-19 pandemiyasından əziyyət çəkdiyi halda, Ermənistanın hücumları nəticəsində Azərbaycanda 20 müəllim, 10 şagird dünyasını dəyişib, 16 şagird yaralanıb və 60 təhsil müəssisəsi dağıdılıb.

Nazir tvit paylaşımına dövrünün nümunəvi maarif ocağı sayılan Şuşa Realnı Məktəbinin erməni işğalından əvvəl və sonrakı vəziyyətinə dair foto da əlavə edib.

Qeyd edək ki, məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olub.

1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.


Ziya Selçuk @ziyaselcuk · 14h

We must demonstrate collective commitment and solidarity against pandemics, wars and conflicts in order not to leave any child behind in education and to achieve SDG-4 goals.

Emin Amrullayev @EminAmrullayev · Jan 24

While global education in pursuit of SDG's was hit by COVID-19 solely, learners & educators in #Azerbaijan were also overwhelmed by the attack of #Armenia that resulted in 20 instructors & 10 schoolchildren killed, 16 injured and 60 schools destroyed.
#InternationalDayOfEducation



# Türkiyənin Milli Təhsil nazirindən azərbaycanlı həmkarının tvit paylaşımına dəstək

Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçuk Azərbaycanın Təhsil naziri Emin Əmrullayevin Beynəlxalq Təhsil Günü münasibətilə şəxsi "Twitter" hesabındakı paylaşımına dəstək nümayiş etdirib.

Ziya Selçuk həmkarının sözügedən tvitini şəxsi hesabında paylaşaraq bu sözləri qeyd edib: "Hər hansı bir uşağın təhsildən geri qalmaması və Davamlı İnkişaf Məqsədlərinin əldə edilməsi axtarışında olan qlobal təhsil hədəflərinə çatmaq üçün pandemiyaya, müharibələrə və qarşıdurmalara qarşı kollektiv məsuliyyət və həmrəylik nümayiş etdirməliyik".

Qeyd edək ki, Təhsil naziri Emin Əmrullayev paylaşımında, "Davamlı İnkişaf Məqsədlərinin əldə olunması axtarışında olan qlobal təhsil yalnız COVID-19 pandemiyasından əziyyət çəkdiyi halda, Ermənistanın hücumları nəticəsində Azərbaycanda 20 müəllim, 10 şagird dünyasını dəyişib, 16 şagird yaralanıb və 60 təhsil müəssisəsi dağıdılıb", - deyə bildirib.

Nazir tvit paylaşımına dövrünün nümunəvi maarif ocağı sayılan Şuşa Realnı Məktəbinin erməni işğalından əvvəl və sonrakı vəziyyətinə dair foto da əlavə edib.